# Qazaxıstanın Qütb ulduzu - Abay



**(başlanğıcı ötən sayımızda)**

*Var-dövlətdən tüklənmiş qonşusunu sıradan çıxarır, kasıb qonşu da öz doğma ocağını atıb başqa yerə köçməyə məcbur olur...*

*Belə adamlardan dost ola bilərmi? El-obada kasıb çoxalanda, əməyin qiyməti də aşağı düşür. Kasıb evləri boşaldıqca, qışlaq yerləri də çoxalır. O kasıb mənim var-yoxdan çıxmağımı gözləyir, mən də onun daha da kasıblaşmağını. Beləliklə, qonşuluqda bir-birini həzm etməmək özünü büruzə verir, yavaş-yavaş dostluq aradan gedir, iki qonşu bir-biri ilə açıq düşmənçilik edir. Mübahisəni həll etmək üçün qazıların yanına gedirik, məhkəmələrdə savaşırıq, partiyalaşırıq, muxtarları, qazıları, hakimləri pulla ələ alırıq, varlanmaq yarışında daha çox var-dövlət əldə etmək üçün mənsəblərə bölünürük...*

Qonşusu ilə mübarizədə zərəçəkən kəs: “daha mal-qara saxlamağa gücüm çatmır”, - deyib öz təsərrüfatını yaratmayacaq, əmək sərf etməyəcək; onu nə torpaq, nə torpağın məhsulu, nə də bazara mal çıxartmaq maraqlandırmayacaq. Çünki əməyini ucuz alan onu torpaqdan küsdürüb. Öz başını saxlamaq üçün bu gün bir partiyaya, sabah başqa partiyaya keçə-keçə özünü satacaq. Beləcə, şərəf və ləyaqətini itirəcək. Oğrular isə tutulmayacaq. El bir olsa, kəndlinin açıq qapısını yad döyə bilməz. El iki yerə bölünəndə isə, adətən, insanların çoxsu xalqdan oğurlayanın yanında olur. Buna görə də oğru yanındakılara arxayın olaraq, talançılığa davam edir.

Aramızda ələləri də var ki, elin təmiz adamı haqqında “çapdı, taladı” yazanların sözünə inanıb, təqsiri olmayanı cinayətkar kimi göstərərək donos yazır, ərizə imzalayırlar. Bundan sonra barəsində şikayət yazılanı istintaqa cəlb edirlər. Yalandan yazılanlara – görmədiklərinə, eşitmədiklərinə şahidlik edənlər də bu yalançı ittihamı təsdiq etmək üçün sıraya düzülür... Təki kimlərinsə maraqlarına xidmət etməyən o təmiz adamı seçkilərə və yuxarı vəzifəyə buraxmasınlar. Əgər böhtana düşən adam, başını bu bəladan qurtarmaq üçün özündən yuxarıdakılarla anlaşa bilməsə, onu ən yaxşı halda ya günahkar və məhkum kimi heç bir vəzifəyə irəli çəkməyəcək, ya da katorqaya göndərəcəklər.

*Nahaqdan məhkum olunan həmin adamsa bu gördüklərindən, başına gələnlərdən sonra həyatda layiqli yerini tapa bilməyəcək. Hiyləgərliklə, mərdimazarlıqla, sadə adamların haqqını yeməklə hakimiyyəti ələ keçirən adamlar elə bilirlər ki, ətrafda hamı onların özü kimidir. Belə fikirləşirlər ki, öz ətraflarında özlərinə oxşayan adamların sayını artırsalar, topluma xeyir verərlər. Daha fikirləşmirlər ki, bunlar ancaq ziyan verməyi bacarırlar.*

İndi qazaxların içərisində yeni söz çıxıb: “İşi bilməz, kişi bilər”. Anlamı budur ki, əgər işini düzəltmək üçün gedibsənsə, kişinin nə fikirləşdiyini öyrən, dilini tap, yolunu tap, işini gör”. Bilirik ki, qazıları üç illiyə seçirlər. Onu seçənlər “Məgər səni biz seçmədikmi?” – deyərək bir ilini ötürürlər. İkinci ili isə gələcək namizədlərlə mübarizəyə həsr olunur. Üçüncü ildə seçkiqabağı həyəcanlar və mübarizələr başlayır ki, yenidən rəqiblərini arxada qoyub özü seçilə bilsin. Bəs yerdə nə qalır? Öz məqsədlərinə çatmaq üçün qazax xalqını çirkli oyunlara çəkənləri görəndə bu nəticəyə gəldim ki, xalq üçün seçilən qazı hər şeydən öncə rus dilində təhsil almalıdır.

Əgər belə bir namizəd tapılmasa, onda qazını üyezdnoy rəisi və ya qubernatoru özü təyin etsin. Bunun xalqa faydası daha çox olar. Öncə şöhrətpərəst qazaxlar o dəqiqə öz uşaqlarını aparıb rus dilini öyrənməyə qoyacaqlar ki, gələcəkdə uşaqları da vəzifə, mənsəb yiyəsi olsun. İkincisi isə qubernatorun təyinati ilə vəzifəyə gələn qazı çalışacaq ki, xalqın minnətini götürməsin, ancaq onu təyin edənlərə baş əyəcək... Belə olarsa, o zaman yalandan böhtan dolu yazılan ərizələrin, şikayətlərin, yoxlamaların da sayı azalar. Biz bu günə qədər muxtarların qazı-hakimlərinin seçilməsinin çox şahidi olmuşuq. Bizim qazaxların içərisində ala qarğa bala çıxarmır, hər adam ədaləti bərqərar edə bilmir. Bunun üçün gərək əcdadımızdan bizə miras qalan “Qasım xanın kəsə yolunu, Esim xanın köhnə yolunu, Təykə xanın Kültöpenin başındakı “Yeddi qanun”unu bilmək gərəkdir. Doğrudur, o qədim qaydalar, sözlərin çoxu indi zamanla uyğun gəlmir, bu qədim hədislərin qabağına gərək yeni zəmanəyə uyğun qanunlar çıxara bilən bir kişi olsun, heyif ki, aramızda beləsi yoxdur.... Qazaxı yaxşı tanıyan köhnə kişilər belə deyirdi: “İki qazı bir yerdə olsa, dörd dava olacaq”. Nə qədər ki, iki qazı bir-biri ilə dalaşacaq, hakimiyyət olmayacaq, qanun işləməyəcək. Çünki dava yeni davalar gətirir. Qazıların savaşını, mübahisə və davasını azaltmaq üçün qəzalardan, xalqın arasından üç nəfər sayğılı, sözükeçən adamı seçib, bir il müddətində mübahisələri həll etməyə, qəzanın, kəndin işlərini yönəltməyə təyin edirsən. Və bundan sonra onların gördükləri işin nəticəsi və mahiyyəti elliklə müzakirə edilir və son sözü qəzanın və kəndin ağsaqqalı deyir. Və bu üç adamın içərisindən ikisini seçir, ondan sonra da bir nəfər vəkil seçilir. Bütün məsələləri iki qazı və bir vəkillə həll etmək lazımdır. Belə olanda heç kimin haqqı tapdanmaz, mübahisəsi uzanmaz.

**1891**

### Dördüncü söz

*Hər bir diqqətli adam bilir ki, gülüşün özü məstliyin, sərxoşluğun, kefliliyin əlamətidir. Sərxoş adam qəbahət edər, kefli adamla da söhbət etmək artıq baş ağrısıdır. Belə olanda, deyiblər ki, boş-boş gülən adamların ağlı topuğunda olar. Onlar arada boş-boşuna gəzib, nə utanar, nə də bir işin qulpundan yapışarlar. Ağlı özündə olan, düşünə bilən adam isə, həm bü gününün sayğısını, həm də axirətini qazanar...*

Sözünün-söhbətinin yerini bilmək uğurun əsasıdır. Mən demirəm ki, insan hər zaman dərd-qəm çəkməlidir. Məgər qəlb ancaq qəm-kədər üçündürmü? Əlbəttə, sevinmək-gülmək də gərəkdir. İnsan təkcə özünü düşünməməlidir, insan daim hərəkətdə olmalıdır ki, dərd-məlal onu ağuşuna almasın. Boş yerə şənliklərə vaxt sərf etmək insana yararlı deyil. Boş şənliklərdənsə, yararlı bir iş görmək insanın ruhunu daha rahat edir.

*Dərd-qəm gələndə də, özünü ona təslim etməməlisən; ancaq zəif adamlar dərdə təslim olur. Dərd-bəla gələndə də ondan çıxış yolu, təsəlli tapmağı bacarmalısan. Əgər qarşına bir səfeh adam çıxsa, onun üstünə də gülmə, gülməyin gəlsə belə, gizlində gül, başqasının səfehliyinə gülmək ayıbdır, gördüklərindən ibrət götür. Qanan üçün acı gülüşün özü ən böyük kədərdir.*

Bir yaxının və ya dostunun yaxşı işini görəndə, insanları firavan görəndə ürəkdən gülməyin yeri var. Lakin dayanmadan, uzun-uzadı gülmək, kimisə lağa qoyub gülmək – bunlar qıraqdan yaxşı görünmür. Elə gül ki, sonradan özünü saxlaya biləsən, çox gülmək adamı dəli edər.

Fikir vermisənmi, hətta uşaq dünyaya gələndə gülə-gülə deyil, ağlaya-ağlaya gəlir. Əgər lazım olsaydı, Allah onu bu dünyaya güldürə-güldürə gətirərdi. İnsan dünyaya ağlaya-ağlaya gəlir, göz yaşları ilə yola salınır. Bu iki hadisənin aralığında ötən ömrü çərçivəsində çox vaxt əsil xoşbəxtliyin harada və nədə olduğundan xəbəri olmur, ona verilən ömrü alçaq və ucuz mübarizələrə, boş mübahisələrə sərf edir. Bir də onda ayılır ki, eyvah, artıq ömür sona çatıb! Ancaq onda anlayır ki, dünyanın bütün xəzinəsini töksə də ömrünü heç nə ilə uzada bilməyəcək.

Ömrü hiyləgərliklə, yalanla, dilənçiliklə, adam satmaqla yaşamaq yiyəsiz itin işidir. Hər şeydən öncə Tanrıya sığınmalısan, sonra isə öz qeyrətinə güvənib yaxşı işlər görsən, bax, o zaman qara torpaq da sənin üçün pərqu kimi olacaq.

**1891**

### Beşinci söz

Qəm çəkən insanın halı uzaqdan bəlli olar. Könlünü donduran kədər, insanın boyunu qısaldar, boynunu bükər, belini sındırar, əlacı hər yandan kəsiləndə gözündən yaş töküb, dilindən ağı deyər.

Qəm-kədər üstün gələndə: “Tanrım, məni balaca qayğısız uşağa döndər”, – deyən qazaxları da öz gözlərimlə görmüşəm.

Kasıblıq insana dərd gətirər. Və zaman-zaman insanlar öz kasıblıq, yoxsulluq dərdini də sözə çevirib, vərəq-vərəq yaddaşlara yazar. Nahaqdan deməyiblər ki, dərdli adamı sözlərindən tanıyırsan. El içində yoxsullar güzəranlarını, dərdlilər çəkdiklərini izhar etmək üçün atalar sözü yaradıblar: “Ömrün sonuncu gününü yaşasan belə, birgünlük azuqəni yığ”, “Kasıbın qardaşı olmaz”, “Var-dövlət adamın ətidir”, “Varlının alnı açıq, kasıbın üstü açıq”, “İgidin payı yolda, qurdun payı kolda”, “Kişinin çörəyi süfrəsində, namərdin çörəyi əlində”, “Bir əl alanda, bir əl verər”, “Qazanandan soruşmurlar”, “Bəydən ümidi üzülən Tanrıdan da küsər”, “Qarnı ac qaralı evə qaçar”.

*Yəqin deyəcəksiniz ki, bu qədim ata sözlərini niyə yazdım? Çünki indiki qazaxlar sülh üçün, elm üçün, ədalət üçün çalışmır, var-dövlət üçün özlərini oda-közə vururlar. Var-dövləti qazanmağın halal yolunu qoyub, onu başqasının əlindən hiylə ilə, biclikə talamağı düşünürlər. Verməsən, əlindən məcbur almağa da hazırdırlar. Var dövlət üstündə qardaşına da qalib gələrlər, lakin utanmazlar. Belə iyrənc yolla mal-dövlət yiyəsi olanlar dilənçinin, şikəstin, əlsiz-ayaqsızın da malına yiyə durarlar.*

*Ona görə deyirəm ki, onların ağlı uşaq ağlından fərqlənməz. Uşaqlar yanan ocaqdan qorxar, böyükləri isə cəhənnəmin alovu da qorxutmur. Uşaqlar bir günahları olub utananda, həyalarından yerə girmək istəyirlər, böyüklərsə etdikləri rəzalətlərdən və axmaq əməllərdən heç utanmırlarda. Ona görə də onlar uşaqları üstələyib keçir. İndi bildinizmi nəyə görə deyirəm ki, böyüklərin uşaqlardan nəyi artıqdır?*

**(davamı gələn sayımızda)**

**Azərbaycan türkcəsinə uyğunlaşdıran:**
**Aida EYVAZLI GÖYTÜRK**

*Nahaqdan məhkum olunan həmin adamsa bu gördüklərindən, başına gələnlərdən sonra həyatda layiqli yerini tapa bilməyəcək. Hiyləgərliklə, mərdimazarlıqla, sadə adamların haqqını yeməklə hakimiyyəti ələ keçirən adamlar elə bilirlər ki, ətrafda hamı onların özü kimidir. Belə fikirləşirlər ki, öz ətraflarında özlərinə oxşayan adamların sayını artırsalar, topluma xeyir verərlər. Daha fikirləşmirlər ki, bunlar ancaq ziyan verməyi bacarırlar*